**AZƏRBAYCAN RESPUBLİKASININ**
**SƏHİYYƏ NAZİRİ**

# Ə M R

№ 83

Bakı şəhəri "02" oktyabr 2015-ci il

**"Bakı şəhəri Xəzər rayonu üzrə laborator xidmətin təkmilləşdirilməsi pilot layihəsinin təşkili barədə"**

Laborator xidmətinin keyfiyyətinin artırılması, ayrılan büdcə vəsaitindən və kadr potensialından daha səmərəli istifadə olunması məqsədi ilə

**ƏMR EDİRƏM:**

1. Bakı şəhərinin Xəzər rayonu tibb müəssisələrinin laborator xidmətinin təkmilləşdirilməsi üzrə pilot layihəsi təsdiq edilsin (əlavə olunur).
2. Tibbi yardımın təşkili şöbəsinin müdiri G.Poladova və Bakı Şəhər Baş Səhiyyə İdarəsinin rəisi E.Əliyevaya tapşırılsın ki, "Mərkəzi Rayon Laboratoriyası haqqında nümunəvi Əsasnamə" hazırlanaraq təsdiqə təqdim edilsin.
3. Pilot layihənin iqtisadi və tibbi effektivliyinin təhlili üzrə bu əmrin əlavəsində göstərilən tərkibdə Komissiya yaradılsın (əlavə olunur).
4. İnnovasiya və Təchizat Mərkəzinin direktoru R.Rüstəmbəyova tapşırılsın ki, Xəzər rayon tibb müəssisələrinin laboratoriyalarını tələb olunan reaktiv, diaqnostikum və laborator avadanlığı ilə təmin etsin.
5. Əmrin icrasına nəzarət nazir müavini Nigar Əliyevaya həvalə edilsin.

Oqtay Şirəliyev

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 02.10 2015-ci il tarixli 83 nömrəli əmri ilə təsdiq edilmişdir

# Laborator XidmətinTəkmilləşdirilməsi Pilot Layihəsi

## 1.PROBLEMİN TƏSVİRİ

Hazırkı dövrdə respublikanın bütün şəhər və rayonlarının əhalisinə müasir standartlara uyğun tibbi yardım almaq imkanı yaradılır. Respublikanın tibb müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması, onların müasir tibbi avadanlıqla təchiz edilməsi həyata keçirilir.

Eyni zamanda səhiyyəyə ayrılan maliyyə vəsaitinin səmərəli istifadə edilməsi vacib şərtlərdən biridir. Buna nail olmaq üçün perspektivsiz, bir-birini təkrarlayan, rentabelliyi az olan və səmərəsiz xidmətlərin sayının azaldılması və s. tədbirlərin həyata keçirilməsi zəruridir.

Tibbi xidmətlər sırasında mühüm yer tutan laborator xidmətin təkmilləşdirilməsi məqsədi ilə Bakı şəhərinin Xəzər rayonunda "Laborator Xidmətin Təkmilləşdirilməsi üzrə Pilot Layihə" təklif olunur.

## 2. LAYİHƏNİN ƏSAS MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

Pilot Layihənin əsas məqsədi laborator xidmətin mərkəzləşdirilməsi ilə büdcə vəsaitlərinin və kadr potensialının səmərəliyinin artırılmasıdır.

Laborator xidmətin əsas vəzifələri:

- laborator müayinələrinin keyfiyyətinin yaxşılaşdırılması;
- müəyyən müayinə üsullarının mərkəzləşdirilməsi;
- aparılan laborator müayinələri əhalinin real tələbatına uyğunlaşdırılması;
- ayrılan büdcə vəsaitindən səmərəli istifadə edilməsi;
- laboratoriyada işləyən kadr potensialından səmərəli istifadə edilməsi.

## 3. LAYİHƏNİN HƏYATA KEÇİRİLƏCƏYİ COĞRAFİ ƏRAZİ

Bakı şəhəri Xəzər rayonu (əhalinin ümumi sayı -180 000)

## 4. LAYİHƏ ÇƏRÇİVƏSİNDƏ GÖRÜLƏCƏK İŞLƏR

Səhiyyə Nazirliyinin Bakı şəhərində yerləşən bütün tibbi müəssisələrinin laborator xidmət göstərən bölmələri aparılan müayinələrin nomenklaturasına uyqun

üç səviyyəyə bölünməsi təklif olunur (müayinələrin tərkibi üzrə səviyyələrin siyahıları və laboratoriyaların təchizat tabeli əlavə olunur).

Hər inzibati rayon üzrə II səviyyəli mərkəzləşdirilmiş laboratoriya təşkil etmək təklif olunur. Digər müəssisələrin laboratoriyaları I səviyyəyə aid edilən müayinələr aparmaq üçün nəzərdə tutulub.

Ən mürəkkəb və bahalı laborator müayinələrin aparılması üçün Bakı şəhəri üzrə III səviyyəli Laborator Mərkəzin təşkili təklif olunur.

Təklifləri sınaqdan keçirmək üçün Bakı şəhərinin Xəzər rayonu pilot rayon seçilib.

Pilot rayonda 26 nömrəli BŞX-nın laboratoriyası II səviyyəli mərkəzləşdirilmiş laboratoriya kimi nəzərdə tutulub. Xəzər rayonunun digər tibb müəssisələrində I səviyyəyə aid edilən müayinələr aparılacaq.

*Xidmətin iş prinsipi:*

I səviyyəyə aid edilən tibb müəssisələrində müayinələr üçün nümunələr saat 13.00-dən 15.00- kimi xüsusi şəraitdə və nəqliyyat vasitəsilə mərkəzi laboratoriyaya catdırılacaqdır.

Xəzər rayonunda keçirilən pilot layihədə iştirak edən tibbi müəssisələrinin siyahısı.

1. BŞX № 14
2. BŞX № 26
3. BŞX № 29
4. BŞX № 31
5. ŞP №17
6. Zirə MDM
7. BŞX № 10
8. BŞX № 16
9. VƏD №7
10. XVX № 8
11. XVX № 9
12. UVS № 3
13. UVS № 5
14. US № 4

## 5. LAYİHƏNİN İCRA MÜDDƏTİ

03.10.2015-03.12.2015

## 6. GÖZLƏNİLƏN NƏTİCƏLƏR

Laborator xidmətin mərkəzləşdirilməsi ilə xidmətin keyfiyyətinin yaxşılaşdırılması, səmərəliyinin artırılması və bununla da ayrılan büdcə vəsaitindən, kadr potensialının daha səmərəli istifadə edilməsidir.

## 7. LAYİHƏNİN MONİTORİNQİ VƏ DAVAMLILIĞI

Layihənin monitorinqı və effektivliyinin qiymətləndirilməsi Səhiyyə Nazirliyinin əmri ilə təsdiq edilmiş komissiya tərəfindən aparılır.

## 8. LAYİHƏNİN RƏHBƏRİ

Bakı Baş Səhiyyə İdarəsinin rəis müavini M.Cəfərov

## 9. XARİCİ MƏSLƏHƏTÇİ

Qalıbin Aleksey Aleksandrovich